# Azad şəhər, yeni həyat



***Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən Füzuli şəhərinin işğaldan azad olunmasından 1 il keçir. Rayon Qarabağda strateji mövqeyinə görə fərqlənən bölgələrimizdən biridir və 44 günlük Vətən müharibəsində Füzuli şəhərinin azad edilməsi İkinci Qarabağ savaşının xüsusən strateji baxımdan əhəmiyyətli uğurlarından biri kimi qiymətləndirilir.***

Ümummilli liderimizin ən böyük arzusu torpaqlarımızın düşməndən təmizlənməsi və ərazi bütövlüyümüzün bərpası idi. Qarabağı və ətraf rayonlarımızı işğalçılardan misilsiz qəhrəmanlıqla, şücaətlə azad edən gənclər də ulu öndər Heydər Əliyev məktəbinin davamçıları və Azərbaycan Prezidenti cənab İlham Əliyev idarəçiliyinin yetirmələridir.

Onu da qeyd edim ki, Qarabağın yağı tapdağından xilasının təməli dahi şəxsiyyətin yenidən hakimiyyətə qayıtması ilə qoyulub. Məhz ümummilli liderin inamı, eyni zamanda, böyük sərkərdə qətiyyəti nəticəsində 1994-cü ildə Füzuli rayonunun 21 kəndi, eləcə də strateji əhəmiyyət daşıyan Horadiz qəsəbəsi düşməndən təmizləndi. Daha sonra Horadiz şəhər statusu aldı və hazırda bu yaşayış məntəqəsi Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən biridir.

Füzuli rayonu artıq yeni bərpa-quruculuq mərhələsinə qədəm qoyub. Füzuli Beynəlxalq Hava Limanı dünyada ən qısa müddətdə inşa edilən aeroportlardan biridir. Artıq burada ilkin sınaq uçuşları həyata keçirilib və müasir standartlara uyğun qurulan bu hava limanı beynəlxalq uçuşları həyata keçirəcək status alıb.

Ölkə Prezidentinin rəhbərliyi ilə rayonunun nəqliyyat və logistik infrastrukturunun formalaşdırılması istiqamətində də işlər intensiv şəkildə həyata keçirilir. Horadiz-Ağbənd dəmiryolu xətti, eləcə də Horadizlə Zəngilanı birləşdirəcək avtomobil yolu, o cümlədən Füzuli-Hadrut, Füzuli-Şuşa Zəfər yollarının inşa edilməsi düşməndən təmizlənən torpaqlarımızın çox qısa zamanda bərpa və yenidənqurma mərhələsinə qədəm qoyduğunu göstərir.

Bərpa və yenidənqurmanın intensiv şəkildə aparılması, eyni zamanda, məskunlaşma prosesinin gözləniləndən daha tez başlayacağından xəbər verir.

Bütün bunlar həyatın, canlanmanın uzun zaman işğalda qalan Füzuliyə yenidən qayıtmasının bariz ifadəsidir.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti.- 2021.- 20 oktyabr.- S.4.